# Aprelin 2-i Azərbaycan ordusunun tarixində parlaq qələbə günü kimi yadda qalacaqdır

**Aprelin 1-dən 2-nə keçən gecə Ermənistan—Azərbaycan qoşunlarının təmas xəttində baş verən hadisələr, Silahlı Qüvvələrimizin işğalçı erməni ordusu üzərində qələbəsi hər bir azərbaycanlının, o cümlədən qəbələlilərin böyük sevincinə səbəb olmuşdur. Erməni silahlı birləşmələrinin Azərbaycan Silahlı Qüvvələrinin hücumuna tab gətirməyərək böyük itkilərlə geri çəkilməsi ilə bağlı redaksiyamıza qürur məktubları gəlməkdədir. Bu məktublardan bir neçəsini dərc edirik.**

## Vətənin müdafiəsi hər kəsin ümdə vəzifəsidir

Hər il Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzi öz şagirdləri sırasından Vətənimizin keşiyini çəkmək üçün hərbi xidmətə əsgər yola salır. Bu günlərdə tədris mərkəzinin şagirdlərindən Aqil Yolçubəyli hərbi xidmətə yola salındı. Tədris mərkəzinin foyesində mərkəzin müəllim və şagird heyətinin iştirakı ilə onu yolasalma mərasimi təşkil edilmişdi. Aqil təhsil aldığı müddətdə nümunəvi şagird kimi özünü göstərmişdir. Çıxış edən müəllim və şagirdlər ona əsgəri xidmətdə müvəffəqiyyətlər arzulayaraq, Vətənin keşiyində şərəflə duracağına inandıqlarını bildirdilər. Aqil də öz növbəsində 2 ilə yaxın müddətdə təhsil aldığı tədris müəssisəsində müəllim kollektivi tərəfindən gördüyü qayğıya və verdikləri təhsilə görə mərkəzin direktoru Eyvaz müəllim başda olmaqla kollektivə təşəkkür etdi. Bu tarixi dönüş günlərində xidmətə yollanmağın bir başqa hiss olduğunu dilə gətirən şagird ona olan etimadı doğruldacağına söz verdi.

Tədris mərkəzində təhsil aldığı dövrdə hərbi xidmətə yola düşmüş şagirdlərimiz xidmətlərini uğurla başa vurduqdan sonra xidmətə yollandıqları günə uyğun olaraq müvafiq sərəncamla təhsil aldıqları peşəyə bərpa olunaraq, təhsillərini davam etdirirlər. Bu il də 2014-cü ilin aprel ayında Azərbaycan Silahlı Qüvvələri sıralarında həqiqi hərbi xidmətə yollanmış 11 şagirdimiz öz peşələrinə uyğun olaraq mərkəzə bərpa olunacaqlar. 2014-cü ilin aprelindən 2015-ci ilin oktyabrına qədər müxtəlif hərbi hissələrdə Vətənin keşiyində qəhrəmanlıqla durmuş və 2016-cı ilin aprelində xidmətə yollandıqları günlərə uyğun olaraq Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzinə bərpa olunacaq şagirdlərimiz də Aqil Yolçubəylinin yolasalma tədbirində iştirak etdilər və Aqilə, eləcə də növbəti çağırışlarda xidmətə gedəcək şagirdlərə öz tövsiyələrini verdilər.

Tədris Mərkəzi olaraq biz şagirdlərimizi hərbi xidmətə yola saldıqdan sonra da onlarla əlaqəni kəsmirik. Belə ki, həm valideynlərlə, həm də xidmət etdikləri hərbi hissə ilə əlaqə saxlayaraq, şagirdlərimizin durumları, necə xidmət etmələri və s. haqqında məlumat əldə edirik.

Təqdirəlayiq haldır ki, əsgərlərimiz də bizimlə əlaqəni kəsmirlər. İstər xidmətlərini başa vurduqdan sonra, istərsə də məzuniyyətə gəldikləri zaman onların ilk ziyarət etdikləri yerlərdən biri vaxtilə təhsil aldıqları təhsil müəssisəsidir. Bu da tədris mərkəzinin öz şagirdləri ilə necə isti münasibətdə olmasının bariz nümunəsidir.

Nəhayət, arzu edirik ki, düşmənlə üz-üzə səngərlərdə Vətənimizin, dövlətimizin, xalqımızın keşiyində dayanan bütün əsgələrimizi Allah qorusun və mənfur düşmən üzərində qələbə qazanaraq sağ-salamat onları gözləyən valideynlərinin, yaxınlarının yanına qayıtsınlar.

**İlham Əfəndiyev,**
**peşə tədris mərkəzi.**

## Ehtiyatda olan kapitan Əhəd İsmayılovun döyüş gündəliyindən

**(Əvvəli 5-ci səhifədə).**

Ancaq bizə əməliyyatı əvvəlki planla davam etdirmək əmri verildi. Demək olar ki, üç tərəfimiz ermənilərlə əhatə olunmuşdu. Kapitan Mürşüd Məmmədovun rəhbərlik etdiyi bölük birinci olaraq hücuma keçdi. Açıq sahədəki bir taqımımız pusquya düşərək düşmənlə əlbəyaxa döyüşə girmişdi. Baş leytenant Akif Kamalovun rəhbərliyi ilə bir bölük pusquya düşənlərin köməyinə çatdı və bu istiqamətdəki düşmən məhv edildi. Əsgər yoldaşlarımız pusqudan çıxarıldı.

Bizim mövqe tutduğumuz ərazinin yaxınlığındakı meşədən səs eşitdik. Sürünə-sürünə təpənin üstünə çıxıb müşahidə apardıq. Kimsə Qarik, Qarik deyə səsləyirdi. Ermənilər taburumuzun arxasına keçərək bizi tam mühasirəyə almaq istəyirdilər. Bu barədə tabur komandiri əvəzi, baş leytenant Feruz Alışova məlumat verildi. O da öz növbəsində Susurluq kəndində yerləşən briqada qərargahına vəziyyət barədə məlumat verdi. Briqadanın əməliyyat rəisi Qorxmaz Qarayevin əmri ilə bizi mühasirəyə almaq istəyən erməni qüvvələri şiddətli artilleriya atəşinə tutuldu və xeyli itki verərək geriyə çəkildi.

Hava qaralandan sonra biz yaralıları da götürərək Qamışlı kəndindəki körpüdən keçib Yanşaq kəndinə çatdıq. Burada boş qalmış və yarı yandırılmış evlərdə gecələdik. İki gündən sonra biz yenidən strateji əhəmiyyətli Çəpli kəndinə hücuma keçərək onu düşməndən geri aldıq. At daşı əməliyyatında igid döyüş dostlarımız kapitan Mürşüd Məmmədovu və gizir Kamal Hacıyevi itirdik.

Ordumuzun Kəlbəcərin bütün yaşayış məntəqələri uğrunda əməliyyatları ermənilərin məğlubiyyətləri və çoxsaylı itkiləri ilə başa çatırdı. Bir neçə gün öncə bizim rabitəçilər ermənilərin Ermənistan Müdafiə Nazirliyinə ünvanladığı şifrəli məlumatı ələ keçirmişdi. Orada qeyd olunurdu «Biz artıq Azərbaycan ordusunun hücumlarının qarşısını ala bilmirik».

**(ardı var).**

## Azərbaycan ordusuyla, igid əsgərlərimizlə fəxr edirik

Bu günlərdə də hər bir azərbaycanlının qəlbi güclü vətənpərvərlik və iftixar hissi ilə döyünür. Son günlərdə cəbhə xəttində baş verən hadisələr bunu bir daha sübüt edir. Vətənimizin və müqəddəs torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən qeyrətli Vətən oğullarımızın cəbhə bölgəsində göstərdikləri böyük şücayət hamı kimi məni də ürəyimdən gələn bu yazını yazmağa vadar etdi.

Əlbəttə, ürək deməsə söz dilə gəlməz. Şəhid oğullarımızın şücaəti barədə eşidəndə, cəbhədəki balalarımızın böyük fədakarlıqlarını görəndə göz yaşlarımızı saxlaya bilmirik. Amma təskinlik tapırıq ki, bu sevinc göz yaşlarıdır. Şəhidlərimizin məzarı bizim and yerimiz, güvənc yerimizdir. Onların yaxınlarına demək istəyirəm ki, onlar bu ağır yükü tək çəkmirlər. Onların şəhid balaları hamımızın övladıdır. Şəhid atanın göz yaşları içərisində dediyi «Qarabağ azad olunsun, orada qurban kəsəcəm» sözləri məni çox kövrəltdi. İnşallah, gözü yaşlı atanın arzusu həyata keçər.

Mən öz şagirdlərimə demək istəyirəm ki, onlar tarixin yaddaşı, informasiya daşıyıcılarıdırlar. Hər qarış torpağımızın azad olunması naminə canını verən Vətən oğullarımızın igidliyini gələcək nəsilə fəxrlə çatdırsınlar. Gələcəkdə Vətənin qorunması onların öhdəsinə düşür. Gənc nəsillər müqəddəs vəzifənin öhdəsindən mən inanıram ki, şərəflə gələcəklər.

Mən yeniyetmə və gənclərimizə həmişə mənfur düşmənlərimizə qarşı qəzəbli və kinli olmağı arzulayıram. Axı biz sülhsevər xalqıq, mühariбə istəmirik. Ermənilərin torpaqlarımızı işğal etdiyi illər ərzində dözümlü, səbirli olmağımızın səbəbi də budur, səbrin də, dözümün də bir sonu var. Vətənimizi, torpaqlarımızı, işğaldan azad etmək naminə düşmənə cavab verilməli idi. Necə ki, aprelin 1-dən 2-nə keçən gecə, sonrakı 2 gün ərzində Milli Ordumuz bu cavabı verdi.

Biz çox xoşbəxt xalqıq ki, belə vətənpərvər, sulhsevər oğul və qızlarımız var və həmişə də olacaq. Mən buna bütün qəlbimlə inanıram ki, işğal altında olan torpaqlarımız tezliklə azad olunacaq, çünki güclü iqtisadiyyatımız, güclü ordumuz var.

Şərəfli Azərbaycan ordusu, igid Azərbacan əsgəri ilə fəxr edirik.

**Mehparə AĞAYEVA,**
**Hacılılı kənd tam orta məktəbin müəllimi.**

## Ey şəhid ataları!

Analar kövrəkdilər, qoymayın ağlasınlar,
Başlarına qaranı qoymayın bağlasınlar.
Susmasınlar kədərli bulaq tək çağlasınlar.
Ey şəhid ataları, dik tutun başınızı,
Gözünüz yaşlanmasın, çatmayın qaşınızı!
İgid övladlar üçün çox sağ olun, var olun,
Bu müqəddəs Vətənə həmdəm olun, yar olun,
Düşmənlərin önündə boran olun, qar olun.
Ey şəhid ataları, qaraltmayın qanınızı,
Düşmənin başına siz tökün daşınızı.
Allah da bizimlədir, çün doğruyuq, haqlıyıq,
Nahaqlardan uzağıq, haqq işinə bağlıyıq,
Düşməndən çox çəkmişik—yaralıyıq dağlıyıq.
Ey şəhid ataları, qoru ad-sanınızı,
Qarı düşmən önündə yüksəldin şanınızı!
Şəhid oğlun qazanıb o üçrəngli bayrağı,
Oğluna güvənir bil Azərbaycan torpağı,
Alır bir-bir düşməndən hər təpəni, hər dağı.
Ey şəhid ataları, bu baharı, bu yazı,
Düşmənə ölüm verək, qənim olaq ən azı.
Haqqın var öyünməyə düşmənlərin önündə,
Şadlanmağın gərəkdir Vətənin bu günündə,
«Vətən, başın sağ olsun» hey səslənir dilində.
Ey şəhid ataları, köklə kaman, tar, sazı
Gir meydana çal-çağır qəhrəmanlıq havası.
Baş Komandan, əmrini gözləyirik hamımız,
Yağını məhv etməyə vallah çatar canımız,
Onunlayıq! Ayrı yox zamanımız, anımız.
Ey şəhid ataları, Vətənimiz bu yazı,
Düşmənsiz olacaqdır bu bir qismət, bu yazı.

**Mehrəli MEHRİƏLİYEV,**
**Bum qəsəbəsi.**